**“Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə Qaydası”nın təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

“Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanının 1.4-cü bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 25 noyabr 2010-cu il
220

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2010-cu il 25 noyabr tarixli 220 nömrəli qərarı ilə
TƏSDİQ EDİLMİŞDİR

**Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə**

**Q A Y D A S I**

## 1. Ümumi müddəa

Bu Qayda “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 5.5-ci maddəsinə əsasən hazırlanmışdır və eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə edilməsi qaydasını tənzimləyir.

## 2. Əsas anlayışlar

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

2.1.1. eksperimental aviasiya və dövlət aviasiyası aerodromları - müvafiq dövlət orqanlarının tabeliyində olan aerodromlar;

2.1.2. siyahı - uçuşların kommersiya məqsədləri ilə yerinə yetirilməsinə buraxılan eksperimental aviasiya və dövlət aviasiyası aerodromlarının və hava gəmilərinin qeydiyyata alınan və təsdiq edilən siyahısı;

2.1.3. xüsusi xarakterli aviasiya fəaliyyəti - kənd təsərrüfatı, tikinti, səhiyyə, aerofotoçəkiliş, topoqrafik və spektrofotometrik çəkiliş, müşahidə və keşikçəkmə, axtarış və xilasetmə, hava reklamı və s. sahələrdə xüsusi xidmətləri təmin etmək üçün həyata keçirilən uçuşlar;

2.1.4. kommersiya məqsədləri - qanunla qadağan edilməyən fəaliyyət zamanı gəlirlərin əldə edilməsinə yönəlmiş məqsədlər;

2.1.5. müvafiq dövlət orqanları - Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, ~~*Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi,*~~ Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, *Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti,* Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi, Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti, Azərbaycan Respublikasının *Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi* .[1]

## 3. Eksperimental aviasiya və dövlət aviasiyasının kommersiya məqsədləri ilə istifadə edilməsi

3.1. Yüklərin və poçtun qeyri-müntəzəm kommersiya daşımaları, habelə xüsusi xarakterli aviasiya fəaliyyətinin yerinə yetirilməsi üçün eksperimental aviasiya və dövlət aviasiyası aerodromlarının və hava gəmilərinin istifadəsi Müdafiə Nazirliyi ilə razılaşdırılmaqla həyata keçirilir. Bu zaman Azərbaycan Respublikasının qanunvericiliyində, beynəlxalq qanunvericilikdə mülki aviasiyaya dair və Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş digər tələblər (Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) Standartları və Tövsiyə Olunan Təcrübəsi, digər beynəlxalq təşkilatların tələbləri) mütləq yerinə yetirilməlidir.

3.2. Eksperimental aviasiya və dövlət aviasiyası hava gəmilərinin kommersiya məqsədləri ilə beynəlxalq uçuşları (zəruri hallarda) Azərbaycan Respublikasının qanunvericiliyinə tam uyğun şəkildə həyata keçirilir. Belə uçuşların yerinə yetirilməsi üçün icazə (Flight Permission) diplomatik kanallar vasitəsilə əvvəlcədən alınır.

3.3. Kommersiya məqsədləri ilə istifadəsi nəzərdə tutulan eksperimental aviasiya və dövlət aviasiyası aerodromlarının və hava gəmilərinin siyahısı, habelə sözügedən siyahıya vaxtaşırı edilən dəyişikliklər (aerodromların mümkün dislokasiyası, hava gəmiləri parkının təzələnməsi, digər aerodromların və ya hava gəmilərinin kommersiya məqsədləri ilə istifadəsinə dair müvafiq dövlət orqanlarının qərar qəbul etməsi ilə əlaqədar və s.) müvafiq dövlət orqanları tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq qərar qəbul olunması üçün təqdim edilir.

3.4. Müvafiq siyahıya daxil edilməyən eksperimental aviasiya və dövlət aviasiyası aerodromlarının və hava gəmilərinin kommersiya məqsədləri ilə istifadəsi qadağandır.

3.5. Zəruri hallarda eksperimental aviasiya və dövlət aviasiyası aerodromlarından mülki aviasiya hava gəmilərinin kommersiya uçuşları üçün qanunla müəyyən edilmiş qaydada istifadə edilə bilər.

## 4. Kommersiya fəaliyyəti ilə bağlı tariflər və əldə olunan vəsaitlərin istifadə edilməsi

4.1. Bu Qaydada kommersiya fəaliyyəti ilə bağlı nəzərdə tutulmuş tədbirlər üzrə tariflər Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunur.

4.2. Dövlət orqanları tərəfindən eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə edildikdə, əldə olunan gəlirlər müvafiq dövlət orqanlarının büdcədənkənar vəsaitlərində nəzərə alınır və onlar tərəfindən büdcədənkənar vəsaitlərin istifadəsinə dair Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış xərclər smetaları çərçivəsində tabeliyində olan qurumların istismar və digər xərclərinin ödənilməsinə istifadə oluna bilər.

4.3. Müvafiq dövlət orqanları bu vəsaitlərin daxil olması və istifadəsi barədə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə ildə bir dəfə hesabat təqdim edirlər.

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 16 oktyabr 2012-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 10, maddə 1014**)
2. 22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** )
3. 21 yanvar 2019-cu il tarixli **18** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 162**)


**QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 16 oktyabr 2012-ci il tarixli **233** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 10, maddə 1014**) ilə "Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə Qaydası"nın 2.1.5-ci yarımbəndinə "**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi**," sözlərindən sonra "**Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidməti**," sözləri əlavə edilmişdir.

22 sentyabr 2016-cı il tarixli **360** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Azərbaycan" qəzeti 30 sentyabr 2016-cı il, 214, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1585** ) ilə "Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə Qaydası"nın 2.1.5-ci yarımbəndindən "**Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi**," sözləri çıxarılmışdır və həmin yarımbəndə "D**axili İşlər Nazirliyi**," sözlərindən sonra "**Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti**," sözləri əlavə edilmişdir.

21 yanvar 2019-cu il tarixli **1 8** nömrəli Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (**"Xalq" qəzeti, 25 yanvar 2019-cu il, 19 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 01, maddə 162**) ilə "Eksperimental aviasiyadan və dövlət aviasiyasından kommersiya məqsədləri üçün istifadə Qaydası"nın 2.1.5-ci yarımbəndində "**Dövlət Mülki Aviasiya Administrasiyası**" sözləri "**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi**" sözləri ilə əvəz edilmişdir.